DÖVLƏT VERGİ XİDMƏTİ

# Dövlət müəssisələrinin nəzərinə!

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən,01.01.2026-cı il tarixindən etibarən**

Vergi Məcəlləsinin 104.9-cu maddəsində nəzərdə tutulan istisnalar (dövlət investisiya proqramı çərçivəsində və müvafiq meyarlara cavab verən investisiya layihələri üzrə ayrılan vəsaitlər) nəzərə alınmaqla,

dövlət büdcəsindən ayrılan və aktivlərə aid edilən digər vəsait hesabına alınan və ya quraşdırılan əsas vəsaitlərə və qeyri-maddi aktivlərə görə hesablanmış amortizasiya məbləği vergi məqsədləri üçün dövlət müəssislərinin gəliri (vergitutma obyekti) kimi tanınır.

Bu aktivlər üzrə hesablanmış amortizasiyanın yalnız **40%** gəlirdən çıxılır.

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

## Nə dəyişdi?

Qanunvericiliyə edilmiş dəyişikliyə əsasən, dövlət büdcəsindən ayrılan və aktivlərə aid edilən digər vəsait hesabına alınan və ya quraşdırılan əsas vəsaitlərə və qeyri-maddi aktivlər üzrə hesablanmış amortizasiya məbləği dövlət müəssisəsinin gəliri kimi nəzərə alınacaqdır.

## Əlavə qeyd

Aşağıdakı amortizasiya məbləğləri dövlət müəssisəsinin gəliri kimi vergiyə cəlb edilmir:

Dövlət investisiya proqramı çərçivəsində Vergi Məcəlləsinin 104-9-cu maddəsində müəyyən edilmiş meyarlara cavab verən investisiya layihələri üzrə ayrılan vəsaitlər hesabına alınan və ya quraşdırılan aktivlər üzrə amortizasiya müəssisənin öz vəsaiti hesabına aparılan və əsas vəsaitlərin dəyərinə aid edilmiş təmir xərcləri üzrə hesablanmış amortizasiya.

**BAKI — 2026**